UOT 94 (479.24

# AZƏRBAYCAN RESPUBLİKASINDA HƏYATA KEÇİRİLƏN SOSİAL-İQTİSADİ İSLAHATLARIN TARİXİ NAİLİYYƏTLƏRİ

**X.A.İSLAMOVA**
***Bakı Dövlət Universiteti***
***xoshgedem-islam@rambler.ru***

*90-cı illərin əvvəllərində Azərbaycan dövləti Qərbin yardımı ilə əhalinin ərzağa olan tələbatını ödəməyə başladı. Xarici ölkələrin iqtisadi təcrübəsindən istifadə etməklə daxili bazarın tələbatını sabitləşdirmək üçün «açıq qapı» siyasətinə start verdi. Dağıdılmış iqtisadiyyatın yenidən bərpa olunması, əhalinin ərzaqla təminatında sabitliyə nail olunması, sosial problemlərin həlli üçün müəyyən işlərin davamlı aparılması vacib məsələlərdən idi.*

**Açar sözlər**: iqtisadiyyat, neft ehtiyatları, tarazlı, dinamik, inkişaf

SSRİ-nin dağılması ilə 1991-ci ilin oktyabr ayında öz müstəqilliyini elan edən Azərbaycan Respublikası dünyanın siyasi xəritəsinə müstəqil dövlət kimi daxil oldu. Bu tarixdən başlayaraq, digər sovet respublikalarında olduğu kimi iqtisadiyyat inzibati-amirlik sistemi ilə idarə olunduğundan ölkə də iqtisadi böhran keçirdi. Ümumi milliləşdirmə siyasəti mülkiyyət münasibətlərinin pozulmasına gətirib çıxarmış, yüksək hərbiləşdirilmiş istehsal deformasiyaya uğramışdır. 1985-1990-cı illərdə yeni iqtisadi münasibətlərə keçid yollarının axtarlıması prosesində dövlət müəssisələri, icarə, kooperativlər, birgə müəssiəslər haqqında qanunların qəbul edilməsi belə SSRİ-ni iqtisadi buxovdan xilas edə bilmədi.Lakin qeyd etmək lazımdır ki, bu dövrdə SSRİ-də həyata keçirilən islahatlar cəmiyyətin yeniləşməsinə yol açmış oldu. Bütün müttəfiq respublikalar öz müstəqilliklərinə qovuşub, bazar iqtisadiyyatı sisteminə keçirdilər. Lakin SSRİ-dən «yadigar» qalan iqtisadi böhran bazar münasibətlərinin yaranması prosesini ləngidirdi. İctimai mülkiyyətə əsaslanan iqtisadiyyat üzərində bazar iqtisadiyyatını qurmaq o qədər də asan proses deyildir və hətta bu prosesdə uğur qazanan ölkələr kifayət qədər çox deyildir.

90-cı illərin əvvəllərində Azərbaycan dövləti Qərbin yardımı ilə əhalinin ərzağa olan tələbatını ödəməyə başladı. Xarici ölkələrin iqtisadi təcrübəsindən istifadə etməklə daxili bazarın tələbatını sabitləşdirmək üçün «açıq qapı» siyasətinə start verildi. Dağıdılmış iqtisadiyyatın yenidən bərpa olunması,

əhalinin ərzaqla təminatında sabitliyə nail olunması, sosial problemlərin həlli üçün müəyyən işlərin davamlı aparılması vacib məsələlərdən idi. 1991-1993-cü illərdə ölkədəki siyasi vəziyyətin qeyri-sabitliyi, hərbi təcavüz nəticəsində ölkə ərazisinin 20%-dək işğal olunması, ölkədəki sosial-iqtisadi vəziyyətin daha da kəskinləşməsinə səbəb olurdu (1, 119). 1 milyondan çox qaçqın və məcburi köçkünlərin əksəriyyəti yaşayış üçün əlverişli olmayan yerlərdə yaşayırdılar. Bunların çoxu əmək qabiliyyətli olsalar da onların iş yeri yox idi, hökumətin verdiyi cüzi müavinətlər hesabına yaşamağa məcbur idilər. Dövlət tərəfindən sosial gərginliyi azaltmaq üçün ölkə iqtisadiyyatının real imkanlarını nəzərə almadan əmək haqqının və sosial ödənişlərin yüksəldilməsi və çoxsaylı güzəştlərin tətbiqi respublikada inflyasiya prosesinin daha da sürətlənməsinə səbəb oldu. 1993-cü ildən Heydər Əliyevin rəhbərliyi ilə bu problemlərin aradan qaldırılması üçün tarixi modernləşmə mərhələsinə başlandı. Bu mərhələ Azərbaycanın dünyaya inteqrasiya olunmasına yol açdı. Nəticədə respublika köhnə inzibati amirlik buxovlarından qurtuldu, mülkiyyət üzərində dövlət inhisarına son qoyuldu, müxtəlif təsərrüfat ukladları yaradıldı, azad sahibkarlığın inkişafı istiqamətində addımlar atıldı, respublikada sağlam maliyyə, kredit, bank sistemi quruldu, ölkənin xarici bazara çıxışı təmin olundu. Ölkədə iqtisadi islahatlara xarici iqtisadi fəaliyyətin liberallaşmasından başlanıldı. Bu proses 1995-ci ilə kimi ölkədə qiymətlərin qalxması ilə müşayət olundu. 1993-cü ildə «Azərbaycanda sahibkarlığın inkişafı (1993-1995)» Dövlət Proqramının təsdiq olunmasından sonra respublikada kiçik və orta sahibkarlar təbəqəsi yarandı (8). 1994-cü ilin əvvələri üçün vahid rubl məkanı ləğv edilib, milli valyuta - manat tədavülə buraxıldı. 1996-cı ildən yeni vergi sistemi yaradıldı (2). Əvvəllər əhalinin mənfəətindən alınan əlavə gəlir vergisi 1996-cı ildə 50% azaldıldı, sonrakı ildə isə ləğv edildi. Fiziki və hüquqi şəxslərdən alınan vergilər azaldıldı (2, 106).

Respublikanın böhrandan çıxarılmasına və inkişafına neft sənayesinin yenidən qurulması yol aça bilərdi. 1994-cı ildə yeni neft startegiyasının əsası qoyuldu. ABŞ, Böyük Britaniya, Norveç, Rusiya, Türkiyə, Səudiyyə Ərəbistanı və Yunanıstan arasında bağlanmış 30 illik saziş - «Əsrin müqaviləsi» yeni neft erası başlandı. Həyata keçirilən tədbirlər sayəsində 1997-ci ildə neft hasilatına start götürdü. 2002-ci ildə ölkədə 15.3 milyon ton neft hasil edildi. Dövlət büdcəsi neft gəlirləri hesabına sabitləşdirildi. 1991-ci ildə dövlət büdcəsinə gələn gəlir 208,8 mln manat idisə, 2000-ci ildə 714,6 mln manat, 2005-ci ildə 2055, 2 mln manat, 2008-ci ildə 10762.7 mln manat olmuşdur (2). Bu müqavilənin imzalanması nəticəsində özəlləşdirmə inkişaf etdi və ÜDM-də özəl sektorun xüsusi çəkisi artdı (özəl sektorun çəkisi 1994-cü ildə 29% idisə, 2009-cu ildə 85% oldu (4, 323). Ümumilikdə iqtisadiyyata yönələn xarici investisiyalar 1995-ci ildə 331,4 mln manat, 2000-ci ildə 829,5 mln manat, 2005-ci i ldə 4628,5 mln manat manat olmuşdur. Neft amilindən istifadə etməklə əldə olunan gəlirlərin qeyri-neft sektoruna yönəldilməsi respublika əhalisi üçün vacib olan sosial problemlərin həlli üçün əsas ola bilərdi.

2006-cı ildə neft-qaz layihələrinin investisiya repartasiya mərhələsinə keçməsi ilə əlaqədar olaraq xarici investiyanın həcmi azalmağa başladı. 2008-ci ildə isə bunun daha kulminasiya nöqtəsinə çatdığını aydın görmək olar. Bu dövrdə xarici investisiyanın həcmi 2.2 milyard manatlıq olmuş, bu da əvvəlki illərə nisbətdə 16.3% az olmuşdur. Səbəbini isə qlobal böhranla əlaqələndirmək olar (7). 2008-ci ildə ölkə iqtisadiyyatına yatırılan investisiyada Böyük Britaniya, ABŞ, Yaponiya, Türkiyə və Norveç əsas investorlar kimi fəaliyyət göstərmişlər.

90-cı illərin əvvəllərində respublikanın milli iqtisadiyyatında sənayenin inkişafı ilə kənd təsərrüfatının inkişafı arasında disproporsiya yaranmışdı. Kənd təsərrüfatı neft və tikinti sahələrindən sonra, əhalinin iş yerləri ilə təminatında ölkədə ən əsas yer sahibidir (7). 2006-cı ildə kənd təsərrüfatında bütün məşğul əhalinin 39,1%-i, neft sektorunda isə cəmi 1%-i işləyirdi. 1996-cı ildə kəndlilərin maddi rifahının yaxşılaşdırılması üçün əlverişli tarixi şərait yarandı (6). H.Əliyevin rəhbərliyi ilə ölkədə torpaq islahatları həyata keçirildi. 2001-ci ildə respublikanın ümumi daxili məhsul istehsalının 16%-i kənd təsərrüfatı məhsullarının payına düşmüşdür (7). Respublikada həyata keçirilən aqrar dəyişikliklər ziddiyyətli və qeyri-ardıcıl səciyyə daşısa da, islahat nəticəsində kənd təsərrüfatında bazar infrastrukturunun ünsürləri, torpaq üzərində xüsusi mülkiyyət, icarə münasibətləri meydana gəlmiş, torpaq bazarı yaranmış, torpaq dəyər qazanaraq kapitala çevrilmişdir.

Ölkədə regional disbalansın aradan qaldırılması istiqamətində görülən tədbirlər bölgələrdə yeni, müasir dünya standartlarına cavab verən emal müəsissələrinin və turizm obyektlərinin açılmasına təkan verdi, əhalinin qaz, su, işıqla təminatı prosesində əhəmiyyətli dərəcədə dönüş yaratdı. Bu, həm də bölgələrdə işsizliyin qarşısını almağa kömək edir, əhalinin şəhərə axınının qarışısını almağa yardımçı olur. Dövlət proqramlarının həyata keçirilməsində əsas məqsəd ondan ibarətdir ki, respublikanın idxalı azalsın və dövlət öz daxili bazarı hesabına əhalini ərzaqla sabit təmin etməyi bacarsın. Burada da əsas ağırlıq aqrar sahənin üzərinə düşür. Əhalinin əksəri regionlarda yaşadıqları üçün bu proqramlar əsasən kənd təsərrüfatının inkişaf etdirilməsinə yönəldilmişdir. Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 11 fevral tarixli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)» aqrar–ərzaq siyasətinin əsas istiqamətlərindən olan kənd ərazilərinin davamlı inkişafını təmin etdi (5). «Azərbaycan Respublikasının regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)» ilə başlanmış inkişaf tədbirlərinin 2009-2013-cü illərdə də davam etdirilməsi nəzərdə tutulmuşdur (4, 539). Dövlət Proqramında bütün regionlarda, eləcə də ölkə paytaxtında mövcud potensialdan daha səmərəli istifadə etməklə qeyri-neft sektorunun inkişafı, kommunal xidmət və digər infarstruktur obyektlərin, yeni istehsal və emal müəssiəslərinin yaradılması, mövcud müəssiəslərdə istehsal fəaliyyətinin genişləndirilməsi, rabitə və informasiya texnologiyalarının tətbiqinin sürətləndirilməsi, sosial infrastruktu-

run yaxşılaşdırılması, o cümlədən müasir standartlara uyğun təhsil, elm, səhiyyə, mədəniyyət və idman obyektlərinin inşası, yenidən qurulması, əlillər və şəhid ailələri üçün yaşayış binalarının tikintisi üzrə kompleks tədbirlər nəzərdə tutulmuşdur. Respublika Prezidentinin 25 oktyabr 2007-ci il tarixli sərəncamı ilə bir pəncərə prinsipinin tətbiqi sahibkarlığın inkişafına yeni tekan oldu. «Bir pəncərə» prinsipinin qəbulu ilə qeydiyyatdan keçən hüquqi şəxslərin sayı 30%-i artmışdır (4, 569). Bu prinsipin gələcəkdə idxal-ixrac əməliyyatlarına da tətbiqi nəzərdə tutulmuşdur. 2003-cü illə müqayisədə ÜDM-in real həcmi 2,6 dəfə artaraq, 38 milyard manat olmuşdur. Bu dövrdə neft sektoru 4,1 dəfə, qeyri-neft sektoru isə 1,8 dəfə artmışdır. 2004-2008-ci illər ərzində qeyri neft sektoruna-aqrar bölmənin inkişafına 6 milyard manat, 2008-ci ildə əlavə olaraq 2 milyard manat investisiya qoyulmuşdur. Bunun nəticəsi olaraq əhalinin məşğulluq səviyyəsi artmışdır. Dövlət Proqramının uğurla həyata keçirilməsi ilə 766 min 300 iş yeri açılmışdır (3, 190).

2001-2005-ci illəri əhatə edən pensiya islahatlarının həyata keçirilməsi, 2006-cı ildə qəbul edilmiş «Əmək pensiyaları haqqında» və «Sosial müavinətlər haqqında» qanunlar ölkə vətəndaşlarının rifah halının gücləndirilməsi istiqamətində atılan ilk addımlardır (6). 2008-ci ilin dövlət büdcəsindən əhalinin sosial müdafiəsinə yönəldilmiş xərclərin məbləği 2003-cü ilə nisbətən 5.2 dəfə çox olmuşdur. Bu baxımdan 2008-ci ili sosial yönümlü tədbirlərin maliyyələşdirlməsi ili adlandırmaq olar. 2003-cü illə müqayisədə 2008-ci ildə əhalinin gəlirləri 4 dəfə artmış, yoxsulluq səviyyəsi 13,2 %-dək azalmışdır (7).

Müstəqilliyn ilk illərində ölkənin nəqliyyat sektorundakı gerilik 1996-cı ildən nisbətən geri alındı. 2004-cü ildən yeni yolların çəkilişinə başlanması, nəqliyyat sektoruna qoyulan investisiyaların artılırması, körpülərin tikilməsi, ən əsası «İpək yolu» nəqliyyat dəhlizinin bərpasının reallaşması nəqliyyat infrastrukturunun inkişafına ciddi təsir edən amillərdəndir (1, 450). 2004-2009-cu illər ərzində regionlarda 1000 km-dən çox magistral yol çəkilmiş və ya əsaslı təmir edilmiş, 600 km respublika əhəmiyyətli və 2700 km yerli əhəmiyyətli yollarda təmir işləri aparılmış, 69 yeni körpü tikilmiş, 34 körpü təmir edilmişdir (7).

Beləliklə, aparılmış tədqiqatlar və əldə edilmiş nəticələr göstərir ki, 1991-2008-ci illərdə respublikanın iqtisadi sosial inkişafı tarixində ən mürəkkəb və ziddiyyətli dövr olmuşdur. Bir tərəfdən respublikanın iqtisadi və sosial inkişafında 90-cı illərin sonunda meydana gəlmiş əmək məhsuldarlığının dinamikası ilə sənaye və kənd təsərrüfatında əmək məhsuldarlağının artması arasında uyğunsuzluq və ziddiyətlər, digər tərəfdən uzun sürən gerilik aradan qalxmış, iqtisadiyatda və sosial inkişafda mühüm nailiyyətlər əldə edilmiş, keyfiyyət dəyişiklikləri baş vermişdir (4, 420).

Həyata keçirilən qısamüddətli tarixi dövr ərzində respublika iqtisadiyyatı beynəlxalq rəqabət qabiliyətini əhəmiyyətli dərəcədə artırmışdır. Prezident İ.Əliyevin 2004-cü ildən respublikanın sosial-iqtisadi inkişafına təkan verə biləcək kompleks tədbirlərə başlaması ilə islahatların «işləməsinə» məcbur

edilmiş, nəticədə respublika iqtisadiyyatında inkişaf dinamikası yüksələn xətt üzrə getmişdir. Bu gün ölkənin müstəqil sosial-iqtisadi inkişafı gedişi üçün həyati əhəmiyyət kəsb edən Azərbaycan iqtisadiyyatının rəqabət gücünün artırılması yolları dövlətin diqqət mərkəzindədir.

## ƏDƏBİYYAT


1. Müstəqil Azərbaycan - 20. Bakı: Azərbaycan , 2011, 640 s.
2. Vəliyev D. Azərbaycanın qlobal iqtisadiyyata inteqrasiyası. Bakı: Azərbaycan, 2008, 426 s.
3. Abbasov Ç.M. Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiya yolları. Bakı: Elm, 2005, 252 s.
4. Heydər Əliyev və Azərbaycan. Bakı: Azərbaycan, 2008, 838 s.
5. Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirlməsi tədbirləri. Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı: "Azərbaycan" qəz., 2003, 25 noyabr.
6. Збигнев Бженский. Великое преобразование // Демократия 1990-х 1993, (№9), с.23.
7. www.president.az
8. www.economy.gov.az
9. www.azstat.org


## ИСТОРИЧЕСКИЕ ДОСТИЖЕНИЯ СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКИХ РЕФОРМ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ


**Х.А.ИСЛАМОВА**


## РЕЗЮМЕ


Формирование свободного предпринимательства среды дали возможность создать новые формы экономики, как индивидуальное предпринимательство и доля негосударственного сектора были значительно увеличены. На нефтяных ресурсах Азербайджана-создание сбалансированной экономики вместе с прочным нефтяным сектором и динамичным развитием нефтяного сектора стало новой приоритетной задачей.



**Ключевые слова**: экономика, нефтяные ресурсы, сбалансирована, динамика, развитие


## THE HISTORICAL ACHIEVEMENT IN THE SOCIAL AND ECONOMIC POLICY OF THE AZERBAIJAN REPUBLIC


**Kh.A.ISLAMOVA**


## SUMMARY


Formation of free entrepreneurship environment allowed to create new forms of economy as individual entrepreneurship and share of non-state sector considerably increased. Restoration of economy, attainment of stable food security, regular work in the solution of social problems were of prior importance.



**Key words**: economics , oil resources, balanced, dynamic, development